**Azərbaycan Respublikası**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**
**1990-cı il 20 Yanvar faciəsinin 23-ci ildönümü ilə əlaqədar**
**B Ə Y A N A T I**

1990-cı il qanlı 20 Yanvar faciəsindən 23 il keçir. Aradan xeyli müddət ötsə də, bu qətliam, tökülən qanlar, insanlığa qarşı yönəlmiş qatı cinayət eyni ağrı, qəzəb və nifrətlə yad olunur. Xalqımızın yaddaşına Qara Yanvar gecəsi kimi həkk olunmuş bu tarix həm şəhidlərimizin anım günü, həm də Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizə aparan xalqımızın birliyi, bərabərliyi günüdür.

Şübhəsiz ki, bütün cinayət hadisələri kimi, bu qanlı aksiyanın da sifarişçiləri və icraçıları vardı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun hərbi hissələri və zirehli texnikası heç bir xəbərdarlıq etmədən Bakı və Sumqayıt şəhərlərinə, habelə ölkəmizin bir çox şəhər və rayonlarına yeridilmişdi. Nəticədə beynəlxalq hüquq normaları, keçmiş SSRİ-nin və Azərbaycan SSR-nin konstitusiyalarının müvafiq müddəaları kobudcasına pozulmuş, millətçi ermənilərin respublikamıza qarşı bitib-tükənməyən təcavüzünə etiraz əlaməti olaraq öz torpaqlarının, milli mənliyinin, qürurunun müdafiəsinə qalxmış çoxmillətli xalqımıza vəhşicəsinə divan tutulmuşdur.

Keçmiş SSRİ rəhbərlərinin göstərişinə əsasən, həyata keçirilmiş xüsusi hərbi əməliyyat nəticəsində bir neçə istiqamətdə Bakıya daxil olan silahlı qoşunlar milliyyətindən, yaşından və cinsindən asılı olmayaraq, 147 nəfər silahsız mülki şəxsi amansızcasına öldürmüş, paytaxtda, şəhərətrafı qəsəbələrdə və rayonlarda 744 dinc, günahsız insan yaralanmış, yüzlərlə adam itkin düşmüş, 841 nəfər qanunsuz həbs edilmişdi. Cəbhə xəttini xatırladan, blokadaya alınmış, səmasında hərbi vertolyotlar fırlanan Bakıda ölçüyəgəlməz dağıntılar törədilmiş, yüzlərlə silahsız, sülhpərvər insan, o cümlədən yaşlılar, qadınlar, gənclər və uşaqlar misli görünməmiş, xüsusi qəddarlıqla qətlə yetirilmiş, televiziya binası partladılmış, inzibati binalara, yaşayış evlərinə, nəqliyyat vasitələrinə ciddi zərər vurulmuşdu. İnsanlıq simasını itirmiş hərbi canilər törətdikləri vəhşilikləri ört-basdır etmək, həlak olanların dəqiq sayını gizlətmək üçün cəsədləri belə məhv edirdilər. Hücum zamanı qadağan edilmiş silah və sursatdan istifadə olunmuşdu. Azğınlaşmış hərbçilər bu fəlakətli gecədə mərhəmət hissini tamamilə unudaraq, ağır yaralıları yerindəcə öldürürdü. Yaralıları çıxaran təcili tibb yardımı maşınlarına və həkimlərə də atəş açılmış, onlarla tibb işçisi yaralanmış, şəhid olmuşdur.

Beləliklə, öz konstitusion hüquqlarının bərqərar olunması tələbi ilə ayağa qalxmış dinc, silahsız əhali təpədən-dırnağa qədər silahlanmış qoşun birləşmələri tərəfindən güllələbaran edilmiş, lakin bu hadisə xalqımızın iradəsini qıra bilməmiş, yenilməzliyini bütün dünyaya nümayiş etdirmişdir. Bu azadlıq mübarizəsi xalqımızı daha sıx birləşdirmiş, 1991-ci ildə Azərbaycanın öz müstəqillyini yenidən əldə etməsi ilə nəticələnmişdir.

XX əsrdə törədilmiş zorakılığın, qeyri-insani rəftarın, işgəncələrin ən dəhşətlilərindən biri olan bu hadisə xalqımızın qan yaddaşına əbədi həkk olunmuşdur. Sovet imperiyasının Azərbaycana qarşı təcavüz siyasətinin tərkib hissəsini təşkil edən, insan hüquq və azadlıqlarının kütləvi və kobudcasına pozulması ilə müşahidə olunan və tarixə 20 Yanvar faciəsi kimi düşmüş o dəhşətli gecəni xalqımız heç vaxt unutmayacaq.

”Yenidənqurma” siyasəti həyata keçirən Sovet dövləti beynəlxalq hüquq normalarına zidd olaraq, Azərbaycana qarşı misli görünməmiş hərbi təcavüz etmiş, insanların ən ali hüququ olan yaşamaq hüququnu kütləvi şəkildə pozmuşdur. Bu imperiya həmin cinayətlə Ermənistanın azğınlaşmış siyasi qüvvələrinə dəstək vermiş, nəticədə Azərbaycana qarşı həyata keçirilən uzunmüddətli erməni təcavüzü, etnik təmizləmə, soyqırımı baş vermiş, torpaqlarımızın 20 faizi zəbt edilmiş, Ermənistan ərazisindən, Dağlıq Qarabağ və ətraf yeddi

rayondan əhali zorla qovulmuş, soydaşlarımızın bir milyon nəfəri qaçqına və öz doğma yurdundan didərgin düşərək məcburi köçkünə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyev 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayətin əslində bəşəriyyətə, humanizmə, insanlara qarşı həyata keçirilmiş dəhşətli bir əməl olduğunu bütün kəskinliyi ilə bəyan etmiş, bu hadisəyə münasibətini bildirən kəskin bəyanatında Bakıda törədilən qırğınlara siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını tələb etmişdi. Həmin tarixi Milli Matəm günü kimi elan etmiş Ulu öndərin təşəbbüsü ilə ilk dəfə olaraq Milli Məclis tərəfindən bu hadisəyə rəsmi siyasi - hüquqi qiymət verilmiş, insanlığa qarşı yönəlmiş həmin aksiyanın Azərbaycan xalqının azadlıq və müstəqillik mübarizəsinə divan tutmaq üçün törədildiyi bildirilmişdir.

20 Yanvar -- Ümumxalq Hüzn günü respublikamızda hər il qeyd edilir. Xalqımız bu hüzn və şərəf günündə igid övladlarının fədakarlığını ehtiramla yad edir. Bu il də paytaxtda və bölgələrdə müvafiq silsilə tədbirlərin həyata keçirilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilmişdir. 20 Yanvar təcavüzü zamanı yüksək vətənpərvərlik və hünər nümunəsi göstərərək həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına ölkə Prezidentinin müvafiq Fərmanına əsasən, «20 Yanvar şəhidi» fəxri adı verilmiş, «1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında» müvafiq Sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinətin məbləği artırılmış və bu qayğı davam etdirilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin ailələrinin sosial məsələlərinin həllinə xüsusi diqqət göstərir. Dövlət Sosial Müdafiə Fondunun illik büdcəsində bu qanlı hadisələr zamanı əlil olmuş şəxslərə müvafiq müavinət nəzərdə tutulur, həmçinin həmin ailələrə ölkə başçısının 19 yanvar 2011-ci il tarixli Fərmanı ilə Prezident təqaüdü verilir.

Dünyanın aparıcı mətbuat orqanlarında da bu faciə ilə bağlı yazılar dərc edilməkdədir ABŞ-ın”The Washington Times” qəzetinin 9 yanvar 2013-cü il tarixli nömrəsində verilmiş məqalədə faciənin mahiyyəti, qırğını törədənlər barədə ətraflı məlumat verilmiş, bu cür qətliamların bir sıra keçmiş sovet respublikalarında-- Qazaxıstan, Gürcüstan və Litvada da törədildiyi, lakin Azərbaycanda həyata keçirilmiş Yanvar qırğınının daha kütləvilyi və qəddarlığı ilə seçildiyi bildirilmişdir.

Dünyanın, o cümlədən Avropanın bir çox ölkələrindəki diaspor təşkilatlarımız tərəfindən dünya ictimaiyyətinin diqqəti bu faciəyə, ümumən Azərbaycan həqiqətlərinə yönəldilir . ABŞ Azərbaycanlılar Şəbəkəsi Amerika ictimaiyyətinin, mətbuatının və ölkə qanunvericilərinin 20 Yanvar hadisələri haqqında məlumatlandırma kampaniyasına başlamışdır. Şəbəkənin yaydığı məlumatda qeyd edilir ki, “1990-cı il yanvarın 20-də sovet qoşunları kontingenti Bakını işğal etmiş, şəhərin dinc əhalisinə vəhşicəsinə divan tutmuşdur. Bu təcavüz sovetlər ölkəsinin öz vətəndaşlarına qarşı törətdiyi növbəti qırğın idi, bundan əvvəl isə digər respublikalarda da belə aksiyalar həyata keçirilmişdir”.

Bu ölkədəki Azərbaycan icması adı çəkilən yazılı kampaniya vasitəsilə Amerika qanunvericilərini bu qeyri-insani aksiyanı rəsmi şəkildə pisləyən qətnamə qəbul etməyə çağırmışdır. Qeyd olunmalıdır ki, son iki ildə şəbəkənin üzvləri Texas və Nyu-York ştatlarının parlamentlərində 20 Yanvar faciəsinə dair qətnamələr qəbul edilməsinə nail olmuşlar. ABŞ-dakı Türkiyə - Azərbaycan diasporunun ölkə konqresinə göndərdiyi müraciətdə də həmin qanlı hadisə statistik faktlarla geniş əks olunmuş, faciə qurbanlarının xatirəsini yad etmək çağırışı yer almışdır.

Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyası, Kanada-Azərbaycan Təşkilatlar Assambleyası ölkənin Kalqari və Ottava şəhərlərində faciənin mahiyyətini çatdırmaq məqsədilə anım mərasimləri keçirmişlər. Pakistanın Preston Universitetində, Avstraliya-Azərbaycan Dostluq Cəmiyyətində Qanlı Yanvar faciəsinin ildönümünə həsr olunmuş seminarlar təşkil edilmiş, İordaniyanın 20-dək kütləvi informasiya vasitələrində faciə qurbanlarının xatirəsi yad edilmiş, Küveytdə "20 Yanvar faciəsi " adlı sərgidə bu qanlı cinayət barədə fotolar və sənədli videogörüntülər nümayiş etdirilmişdir.

Faciə qurbanları xalqımızın müqəddəs and yerinə, ziyarətgaha çevrilmiş Bakıdakı və respublikamızın müxtəlif bölgələrindəki Şəhidlər xiyabanlarında uyuyurlar. Xalqımız həlak olmuş oğul və qızlarının milli azadlıq mübarizəsi uğrunda nümayiş etdirdiyi birliyi yüksək dəyərləndirərək, ölkəmizin bu günü və gələcəyi, taleyüklü prioritet məsələlərin həlli, qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, dövlətimizin daha qüdrətli olması naminə öz milli həmrəyliyini ildən-ilə daha da möhkəmləndirməkdədir.

İnsan hüquq və azadlıqlarının müdafiəsinin dövlətlərarası əməkdaşlıq səviyyəsinə çıxarılması, bu sahədə beynəlxalq təminatların yaradılması müasir beynəlxalq hüququn ən mühüm nailiyyətlərindəndir. Bununla da insan hüquqları dövlətlərin daxili səlahiyyətləri çərçivəsindən çıxaraq beynəlxalq əhəmiyyət kəsb edir. 20 Yanvar 1990-cı il tarixdə dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı, insanlıq əleyhinə törədilmiş dəhşətli əməl nəticəsində BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin, 1949-cu il Cenevrə Konvensiyalarının, habelə insan hüquqlarına dair digər beynəlxalq hüquqi sənədlərin müddəaları kobud şəkildə pozulmuşdur.

Kütləvi insan itkisi ilə nəticələnən 20 Yanvar faciəsi öz mahiyyətinə və miqyasına görə dəhşətli bir cinayətdir. Lakin bu qanlı cinayətə indiyədək beynəlxalq hüquqi qiymət verilməmiş, aksiyanın sifarişçiləri və icraçıları cəzalandırılmamışdır. Bir daha bəyan edirik ki, beynəlxalq və dövlətdaxili hüquqa əsasən bütün əlamətləri özündə əks etdirən, insan hüquqlarının kobud və kütləvi şəkildə pozulması ilə müşayiət olunmuş bu qanlı aksiya əvvəlcədən düşünülmüş, milli mənsubiyyətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə xalqımıza qarşı törədilmişdir. Ümid edirik ki, dünya ictimaiyyəti, beynəlxalq qurumlar Azərbaycanın haqlı tələblərini dəstəkləyəcək, bu qanlı aksiya insanlıq əlehinə cinayət kimi tezliklə beynəlxalq hüquqi qiymətini alacaq, cinayətkarlar cəzasız qalmayacaqdır.

**Elmira Süleymanova**
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

**17 yanvar 2013-ci il**

Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına ünvanlanmışdır.